9
2016

# GÖYƏRÇİN

İSSN-0207-4710



# YERİYƏN AĞAC

***Sakit okean adaları xalq nağıllarından***

Bir oğlan Onqar kəndinin yaxınlığındakı sahildə oynayırdı. Birdən o gördü ki, nəhəng bir ağac kəndə sarı irəliləyir. Bu çox heyrətamiz və vahiməli bir mənzərə idi. Oğlan qorxudan qışqırdı və kəndə sarı qaçmağa başladı.

Səs-küyə kəndin kişiləri yığışdılar. Oğlanı dinləyəndən sonra qərara gəldilər ki, nə qədər ki, yeriyən ağac kəndə gəlib evləri uçurmayıb, onu kəsib-doğramaq lazımdır.

Onlar qonşu kəndin adamlarını da köməyə çağırdılar. Əllərinə daşdan düzəldilmiş baltalar götürən kişilər birlikdə getdilər ki, ağacın zoğlarını kəssinlər. Onlar üç gün, üç gecə çalışdılar, əlləşdilər, ancaq istədiklərinə nail ola bilmədilər. Ağac yeriyə-yeriyə lap gəlib kəndə çatdı. Adamlar isə həyəcanla öz işlərini davam etdirirdilər. Nəhayət ki, ağacın gövdəsi silkələndi, hərəkətə gəldi. Nəhəng ağac nərə çəkərək yerə yıxıldı. Səs o qədər güclü idi ki, hamı qorxdu.

Ağac ora-bura yellənəndə üstündəki meyvələrin hamısı yerə töküldü. Dənizə düşən meyvələr dəniz, çaya düşənlər isə çay balığına çevrildilər.

Beləliklə, Onqar kəndi təhlükədən xilas oldu. Ən əsas məsələ isə ondan ibarət idi ki, bu ağacın kəsilməsi nəticəsində dünyanın ilk balıqları yarandı. Əgər o balaca oğlan vaxtında qaçıb xəbər verməsəydi, yer üzündə nə Onqar adlı kənd olar, nə də bu qədər balıq yaranardı.



# OĞURLANMIŞ OD

Qabaqlar insanlar çiy yeməklər yeyirdilər. Ona görə ki, tapdıqları qidanı bişirmək üçün odları, ocaqları yox idi.

Bir dəfə Maui adlı oğlan anası Hinadan soruşdu:

-Anacan, biz odu necə əldə edə bilərik?

-Odun yerini ancaq toyuqlar bilir. Ancaq onlardan bunu öyrənmək çox çətindir. Gərək ən kiçik toyuq tutasan ki, sənə od tapmaqda kömək edə. Yoxsa böyük toyuqlar öz xoşu ilə sənə heç vaxt od verməzlər.

Oğlan od dalınca toyuqlar yaşayan dağa getdi. Ancaq buradakı toyuqlar çox böyük idi. Oğlan onları tutub od almaq istəyəndə toyuqlar qaçırdılar. Maus nə qədər çalışdısa, məqsədinə nail ola bilmədi.

Nəhayət, oğlan balaca bir toyuğa rast gəldi, cəld onu tutdu. Toyuq oğlana yalvardı ki, məni burax, əvəzində nə istəsən verərəm.

Oğlana da elə bu lazım idi. Toyuq ona bir ağac göstərib dedi ki, onun budağını suya sürtsən, alov çıxacaq.

Oğlan toyuğu buraxdı. Onun dediyi kimi elədi. Ancaq od alınmadı ki, alınmadı. Maui bildi ki, hiyləgər toyuq onu aldadıb. Yenidən geriyə gəlib həmin kiçik toyuğu tutdu. Toyuq çar-naçar oğlana odu necə əldə etməyi öyrətdi. Od yandırmağa nail olan gənc onu aldatdığı üçün toyuğun pipiyini yandırdı. Elə buna görə də o vaxtdan bütün toyuqların pipiyi qırmızıdır. İnsanlar isə oda sahib olub onun vasitəsi ilə dadlı-dadlı yeməklər bişirirlər.

*Tərcümə edib işləyəni R.Y.Əliyev*



